


# PROQRAM-DƏVƏTNAMƏ

*Kitab təqdimatı*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

*Hörmətli* ______________________________

*Sizi*
*31 may 2022-ci il tarixində*
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*təşkilatçılığı ilə keçiriləcək*
*UNEC Multikulturalizm*
*Tədqiqat Mərkəzinin rəhbəri*
*professor Məhəbbət Paşayevanın*

**«QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN ALBAN ABİDƏLƏRİ»**

***kitabının təqdimat mərasiminə dəvət edirik.***

**Tədbir saat 15.00-da**
UNEC-in Əsas tədris binası, Ağ zalda keçiriləcəkdir.

Ünvan: Bakı ş., İstiqlaliyyət küçəsi, 6
Əlaqə telefonu: (012) 492-57-31
*Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi*

# TƏDBİRİN PROQRAMI

| | |
|---|---|
| $14^{00} – 15^{00}$ | **Multikulturalizmə həsr olunmuş kitab və eksponatlardan ibarət sərgi** |
| $15^{00} – 15^{10}$ | **Alban abidələrinə həsr olunmuş videoçarxın nümayişi** |

**SALAMLAMA NİTQİ:**

**Professor Ədalət Muradov -** Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru

**MƏRUZƏÇİLƏR:**

**Rəvan Həsənov** – Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru

**Mübariz Qurbanlı –** Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

**Nizami Cəfərov** – akademik, millət vəkili

**Anar İskəndərov**- professor, millət vəkili

**Ceyhun Məmmədov** - ilahiyyat üzrə fəlsəfə doktoru, millət vəkili

**Kərim Şükürov** - professor, AMEA Tarix İnstitutunun direktoru

**Milix Yevdayev** — Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri

**Aleksey Nikonorov** – ilahiyyat üzrə fəlsəfə doktoru, Arximandrit, Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının katibi

**Muxtar İmanov** – akademik, AMEA Folklor İnstitutunun direktoru

**Robert Mobili** - Alban Udi xristian icmasının sədri

**Ocal Oguz** - Pr.Dr UNESCO Türkiyə Milli Komisyonu Başkanı, Gazi Üniversitesi Edebiyat Fakültesi (onlayn)

**Məhəbbət Paşayeva** – professor, UNEC Multikulturalizm Tədqiqat Mərkəzinin rəhbəri



## Prof. Məhəbbət Paşayeva

1965-ci ildə Bakı şəhərində anadan olub. 1987-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib. 2000-ci ildə namizədlik, 2013-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülüb.

2000-ci ildən UNEC-də çalışır, UNEC Humanitar fənlər kafedrasının professoru, həmçinin UNEC Multikulturalizm Mərkəzinin rəhbəridir.

2013-2014-cu illərdə Frankfurt-Main Johann Wolfgang Goethe Universitetinin "Khinalug Documentation Project" layihəsində iştirak edib. The History and Etnography of Shahdagh Peoples" adlı monoqrafiyası ingilis dilində nəşr olunub.

2015-ci ildə AR Prezidenti yanında Elmin İnkişafı Fondunun əsas qrant müsabiqəsinin layihə rəhbəri kimi qalibi olub.

Xarici və respublika jurnallarında nəşr edimiş 100-dək elmi əsərin, o cümlədən 8 monoqrafiyanın müəllifidir. Beynəlxalq və dövlət səviyyəli konfransların iştirakçısıdır.

Təqdim olunan kitabın yazılması Azərbaycan tarixi və onun ən zəngin mərhələlərindən birini təşkil edən alban xristian irsi və bu irsin ən zəngin nümunələrini yaşadan Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin tarixi keçmişi və bu günkü vəziyyəti, onların falsifikasiya edilməsi faktlarının genis oxucu auditoriyasına catdırılması, bölgənin bütün alban abidələrinin, ümumi tarixi arayış verilməklə bir nəşrdə toplanması zərurətindən irəli gəlmişdir. Kitabda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində keçən əsrin son illərinə qədər aşkar edilmiş və bir qismində elmi tədqiqat işləri aparılmış yüzdən artıq alban memarlıq abidəsi haqqında tarixi arayış verilmişdir. Eyni zamanda bölgənin alban abidələri ilə bağlı tarixi-etnoqrafik, arxeoloji, memarlıq materialları toplanaraq ümumiləşdirilmişdir.